# Yeni tədris metodologiyası ilə bağlı təlim keçirilmişdir

*12-14 sentyabr 2017-ci il tarixlərində respublikamızın 5 rayonunda fəaliyyət göstərən peşə liseyi və məktəblərinin nümayəndələri Qəbələdə yeni təlim proqramının öyrənilməsi üçün toplaşdılar.*

Son illər ölkəmizdə ilk peşə-ixtisas təhsilinə diqqət artmaqdadır. Sevindirici haldır ki, Qəbələ bu baxımdan xüsusi ilə fərqlənir. Rayonda 2008-ci ildən fəaliyyət göstərən Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi yaxın keçmişdə turizm və qonaqpərvərlik sənayesi üzrə Qəbələ və ətraf rayonlarda yaradılan yeni iş yerləri üçün onlarla kadr təminatını qarşılaya bilibdir. Bununla yanaşı, bu ildən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi yeni tədris binasında, geniş təcrübə bazası ilə tədrisi davam etdirəcək.

12-14 sentyabr 2017-ci il tarixlərində Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 5 şəhər və rayonun peşə məktəbinin 20 nəfər müəllim və ustası üçün Modul Yanaşma təlim kursu keçirilmişdir. Təlimdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin əməkdaşları ilə yanaşı, Balakən, Bərdə, Qax və Şəmkirdə fəaliyyət göstərən peşə liseyləri və məktəblərinin də nümayəndələri iştirak etmişlər. Kursda modul yanaşma təliminin üstün cəhətləri, başlıca xüsusiyyətləri, düzgün öyrənmə elementlərinin müəyyən edilməsi, şagirdlərin qiymətləndirilməsinin aparılması kimi vacib mövzular əhatə olunmuşdur. Təlimçi, peşə standartları və peşə təhsili üzrə ölkəmizdəki ən təcrübəli ekspertlərdən biri olan Amin Çərkəzov, modul yanaşma sisteminin daha rahat qavranılması məqsədi ilə özü bu təlimi modul yanaşma metodologiyası ilə keçirmişdir. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində modul yanaşma təlim metodu artıq ötən illərdən tətbiq olunsa da, qeyd edilən rayonlar bu cür tədris metodologiyasına yeni başlayacaqlar. Bu baxımdan təlim təcrübə mübadiləsi baxımından da çox faydalı olmuşdur.



Qeyd edək ki, artıq aqroservis mütəxəssisi və bitkiçilik mütəxəssisi ixtisasları, həmçinin bağçılıq sahəsi üzrə ümumi olaraq 12 modul tipli dərs vəsaiti artıq hazırdır və yaxın günlərdə çap olunaraq Qəbələ ilə yanaşı digər rayonlardakı şagirdlərin də istifadəsinə veriləcək. Meyvə ustası və tərəvəz ustası ixtisasları üzrə 7 modul tipli dərs vəsaiti isə 2018-ci ilin yayında hazır olacaq.

**«Qəbələ»**

# Maraqlı tədbir



Qəbələ İncəsənət Məktəbində Milli Musiqi Günü qeyd olunub.

Məktəbin direktoru Əhməd Qəndiyev Azərbaycan musiqisinin tarixi, Milli Musiqi Günü, dahi bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığı haqqında geniş məlumat verilmişdir. Tədbirdə milli musiqimizin dərin köklərə söykəndiyi, Üzeyir Hacıbəylinin Azərbaycan musiqinin inkişafında əvəzsiz rol oynadığı, dahi bəstəkarın anadan olduğu 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd edildiyi, hər il ölkəmizdə təntənəli mərasimlərin keçirildiyi diqqətə çatdırılıb.



Sonra məktəbin şagirdlərinin ifasında dahi bəstəkarın əsərlərindən ən yaxşı nümunələr məharətlə ifa olunub.

Konsert proqramında məktəblilər bəstəkarın “Cəngi”, “Şəfqət bacısı”, “Qaragöz”, “Axşam oldu”, “Ey səba yeli” əsərlərini, “Koroğlu” operasından və “Arşın-mal alan” operettasından qızların xorunu, eləcə də digər görkəmli Azərbaycan bəstəkarlarının əsərlərindən fraqmentləri səsləndirmişlər.

**Ədibə MƏMMƏDOVA,**
**məktəbin tədris hissə müdiri.**

*1 oktyabr Beynəlxalq Ahıllar Günüdür*

# Ahıllar müdrik insanlardır

Ulu öndər Heydər Əliyev 1998-ci ildə ahıllarla görüşündə demişdir:

«Əmin ola bilərsiniz ki, sizin həyatınız, yaşayışınız daim bizim, prezidentin qayğısı altındadır və bundan sonra da belə olacaqdır».

Bütün sahələrdə olduğu kimi ulu öndərin ahıllarla əlaqədar siyasəti də Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir.

BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul etmişdir. Qətnaməyə uyğun olaraq hər il 1 oktyabr tarixi Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. 1999-cu il isə «Beynəlxalq Ahıllar İli» elan edilmişdi.

Bizim respublikamızda 1993-cü ildən başlayaraq hər il oktyabrın 1-i ahıllar günü kimi qeyd olunur.

Ölkəmizdə ahıl adamlara böyük diqqət və qayğı göstərilir. Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qəbələ Rayon Şöbəsinin sostal xidmət sektoru tənha ahıl və əlillərə sosial məişət xidməti göstərir. Hazırda şöbənin 7 nəfər sosial işçisi Qəbələ şəhəri, Vəndam qəsəbəsi, Nohurqışlaq, Böyük Əmili, Mıxlıqovaq, Həmzəli və Xırxatala kəndləri üzrə 60 nəfər tənha ahıl və əlillərə xidmət edir. Sosial işçilər həftədə 2 dəfə ahılların evlərində olur, onlara ev işərində köməklik göstərir, qayğıları və ehtiyacları ilə maraqlanırlar.

Həmişəki kimi işçilərimiz bu il də ahıllar günü münasibətilə tənha qocaların evlərində olaraq onların bayramlarını təbrik edəcək, məişət xidməti göstərəcəklər.

**Nərgiz ABDURƏHİMOVA,**
**ƏƏSMN-nin Qəbələ Şöbəsinin sektor müdiri.**

# Beynəlxalq Sülh Günü münasibəti ilə tədbir keçirilmişdir

***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi təşkilatın qeydiyyatında olan sağlamlıq imkanları məhdud və az təminatlı ailələrin uşaqlarının iştirakı ilə 21 sentyabr Beynəlxalq Sülh Günü münasibət ilə geniş tədbir keçirilmişdir.***

Tədbirdə çoxlu sayda insanlar iştirak etmişlər. Beynəlxalq Sülh Günü münasibətilə keçirilən tədbirə başlamazdan əvvəl, ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə tədbirdə iştirak edən iştirakçılar və uşaqlar tərəfindən əklillər və gül dəstələri qoyulmuşdur. Daha sonra tədbir iştirakçıları “Biz sülh istəyirik, müharibə olmasın” şüarları səsləndirməklə tədbiri davam etdirmişlər.



Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin qeydiyyatında olan fiziki məhdudiyyətli uşaqlar, həmçinin mərkəzdə fəaliyyət göstərən özfəaliyyət qrupunun üzvləri öz ifaları ilə dinindən, dilindən, irqindən asılı olmayaraq bütün uşaqları təbrik etmiş, onlara müharibələrin, yoxsulluğun, xəstəliklərin olmadığı, əbədi sülhün, əmin-amanlığın hökm sürdüyü bir dünyada yaşamağı arzu etmişlər.

**Dilarə BƏKİROVA,**
**Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin sosial iş üzrə mütəxəssisi.**